ədalət.- 2021.- 13 aprel.- S.6.

# “Ölmüş” yetim”



***Yazıçı, Qarabağ müharibəsi veteranı, Əməkdar mədəniyyət işçisi, Tahir Kazımovun yenicə bitirdiyi, iri həcmli, iki cildlik "Ölmüş" yetim nağılvari romanından bəzi hissələrini Siz oxuculara təqdim edirik.***

*(əvvəli ötən sayımızda)*

**Romandan parça**

- Az çərənlə, mən bacımı elə oğlana ərə verəcəyəm ki, sənin kimi sərsərilər heç onun əlinə su tökməyə də yaramasınlar.

- Qardaş, məsləhət görərdim evdə, valideynlərinin yanında bacınla söhbət et, əgər desə ki, mənə meyli yoxdur, valideynlərin də bacınla razılaşarlar... mənə xəbər elə, daha gözümün ucu ilə də bacına baxmaram.

- Çuşka, dedim ki, bacımdan əl çək, o səni sevsə də, mən razı deyiləm... başa düşmürsən, əgər mən sənə deyirəmsə bacımdan əl çək, deməli, bu məsələ ailəmizdə müzakirə olunub və bacım da sənə "yox" deyib, qandın?

- Başa düşdüm, ürəyə güc gəlmək olmaz, Allah bacını xoşbəxt eləsin, - deyə kədərlə qızın qardaşından uzaqlaşmaq istəyirdim ki, Allahverən bizə yaxınlaşdı, bir əlini mənim, o biri əlini isə oğlanın çiyninə qoyub dedi:

- Oğlan, bayaqdan söhbətinizə qulaq asıram, sən səhv edirsən... sən də cavansan, bir anlığa özünü onun yerində say.

- Sən kimsən?

- Belə hesab elə ki, mən bu cavan oğlanın böyük qardaşıyam.

- Kim olursan ol, yox, yox, vəssalam.

- Sənə bir neçə məsləhət verim, birincisi, evdə bacınla, valideynlərinlə bir daha söhbət et, bacın yenə "yox" desə, mən özüm bu balaca qardaşımı, bacını sevsə də, qoymaram ona yaxınlaşmağa, əgər işdir, bacın razılaşsa, mən iri buynuzlu dağ qoçunu eşşəyin quyruğuna bağlayıb bacına elçiliyə gələrəm...

- Eşşək priçom? - qızın qardaşı təəccüblə soruşdu.

- Sən demədin ki, bu oğlan anqırıb tayını tapsın?

- Mən dedim, hə, yenə deyirəm, anqırsın tayını tapsın.

- Dağ rayonlarında anqırmaq uzunqulağa, eşşəyə aiddir, bu oğlan da anqıra bilmir, özünün əvəzindən eşşəyi anqırda-anqırda qoçla birlikdə mənimlə elçiliyə gələcək... susursan... bir mənəvi şillə də vuirum, ayrılaq... sən nə bilirsən ki, bu iddia ilə gələcəkdə sən kim olacaqsan, sən nə bilirsən, bu, bu gün sənin bacını sevən gələcəkdə hansı vəzifə sahibi olacaq, bəlkə elə nazir olacaq, əgər bu oğlan yüksək vəzifə tutsa, inanıram ki, tutacaq da, bax, onda sənin bacına seçdiyin oğlan heç bunun əlinə su tökməyə də yaramayacaq... bir söz də deyim, xoşbəxtlik sevib ailə qurmaqdadır, hesaba, bu vəzifəli şəxsdir, ərə getmək çox vaxt, əlbəttə, sevgisiz evlilikdən söhbət gedir, axırı faciəli olmasa da ayrılıqla başa çatır.

- Mənim bacım ərə gedərsə, birinci, bunun kimi çuşkaya getməyə qoymaram, ikincisi, onu boşamaq istəyəni öldürərəm.

- Bu əqidədə sənə uğurlar arzulayıram... amma yay smestrindən sonra sənə söz verirəm ki, bacın bu oğlana ərə getmək istəməsə də, qoç və anqıran eşşəyi, boazğında qırmızı lentlə qapınıza göndərəcəyəm, qoç halalın olsun, kəsib şənlənərsiniz, eşşəyi isə istədiyiniz vaxt anqırdarsınız ki, bilməyən qonşular da bilsinlər ki, bacına elçi gəliblər, - ciddi deyən Allahverən qolumdan tutub özü ilə apardı, küçəni keçəndə soruşdu:

- İncimədin ki?

- Yox, yox... bu eşşək məsələsi lap ürəyimcə oldu, sən həm də zarafatcıl imişsən.

- Qanmazı, zarafatla da olsa başa salmaq lazımdır, amma oğlan qanmadı.

- Bağışlayın, neçə illərdən sonra evlənəndə, qız evinə qoç aparanda Allahverənin sözlərini yadıma saldım, güldüm... həmin qız mən nazir müavini vəzifəsində işləyəndə qəbula gəlmişdi, özümü tanımamazlığa qoydum, tarixçəsini danışdı, iki dəfə sevmədən vəzifəli şəxsə ərə gedibmiş, hər evlilikdən də bir uşağı olubmuş... sözə çox yer verdik... atanın belə qayğı, xeyirxahlıq dolu misalları çoxdur... mən çox şad oldum ki, bu gün mənə qayğılı olmuş bir kişinin yeganə övladına kömək etmək imkanındayam... xanım, - nazir kadr rəisinə müraciətlə, - sabah Allahverənin təyinat əmri stolumun üstündə olsun.

- Bağışlayın, demədiniz hansı şöbəyə, nə vəzifəsinə? - kadr rəisi diqqətini nazirdə saxladı.

- Demədim? - nazir gülümsədi, - deməli, demədim... aparat rəhbəri, sən texnikum direktoruna zəng elə, yataqxanalarda Allahverənə münasib otaq versinlər.

- Baş üstə, - aparat rəhbəri qalxıb oturdu.

- Bağışlayın... mənə iş verəcəksiniz, mən elə başa düşdüm?

- Cavan oğlan, sənə iş də, yaşamaq üçün hələlik yataqxanada otaq da verəcəyik.

- Mən yuxuda deyiləm ki, üzünü görmədiyim atam haqqında o qədər xoş sözlər dediniz ki!

- Özünü, əgər yuxuda hiss edirsənsə, ayıl, atan haqqında dediklərim də düzdür.

- Olar bir xahiş edim?

- Buyur!

- Mümkünsə mənə doğma universitetin yataqxanasında məskunlaşmağa imkan yaradın, personalı tanıyıram, şəhərin mərkəzində yerləşir.

- Yaxşı xahişdir, bu, həm də təzə rektora mənəvi şillə olar, - deyə nazir qarşısındakı kitabçanı vərəqləyib dörd rəqəm yığdı, əlaqə yarananda ciddi danışdı və aparatı səsliyə qoydu, - salam.

- Hörmətli nazir, salam, salam! - rektorun səsi eşidildi.

- Otur, otur, ayağa durmaq lazım deyil!

- Baş üstə.

- Cavab ver, nəyə görə Respublikanın Moskvaya oxumağa göndərdiyi, təhsilini yüksək səviyyədə bitirib Bakıya gələn Azərbaycan vətəndaşına ona doğma olan universitetdə iş verməmisən? Səbəb?

- Bağışlayın, onun haqqında yaxşı sözlər danışmırlar.

- Məsələn, nə danışırlar?

- Deyirlər müəllimlərini saymır, onlara keçmiş rektorun kabinetində pedaqogikadan, metodikadan, məntiqdən dərs deyirmiş. Rektor da onun tərəfini saxlayıbmış.

- Əgər professor kütdürsə, iyirmi, otuz il əvvəl aldığı təhsillə kifayətlənirsə, tələbə belələrinə dərs deyirsə... de, müəllim belə tələbəsi ilə niyə sevinmir, fəxr etmir?

- Elədir... deyirsinizsə, mən ona iş verərəm.

- Mən deyəndən sonra sənin ona iş verməyini, - mənə işarə etdi, - heç özü də istəmir. Sənin hər sözə inanıb, gənclərin gələcək uğurlarına mane olmağını bəyənmir və başa düşmürəm.

- Bağışlayın.

- Nəticə çıxar... çalış özünə arxalan, kiməsə arxalanıb karyera pillələrini qalxanların sonra da, yuxarı pillələrdən başı aşağı yuvarlananların çox şahidi olmuşuq. Özünə arxalan ki, arxasız qalanda sənə, sənin özünə görə hörmət etsinlər... bu bir tövsiyədir, nəticə çıxar... bir də nə bilirsən, birdən çərxi-fələk elə fırlanar ki, bu gün sən iş vermədiyin bu cavan oğlan səni, sənin kreslonda əvəz edər, unutma, o kresloda, o kabinetdə kreslolar dəyişdirilsə də, kabinet sahibləri də dəyişirlər.

- Bağışlayın...

- Bu gün yataqxana komendantına sərəncam göndər ki, Allahverən Allahverən oğluna yataqxanada, 2-ci, ya 3-cü mərtəbədə hər şəraiti olan bir çarpayılıq işıqlı ayrıca otaq ayırsınlar, hər şəraiti olan -ha!

- Baş üstə!

- Unutma, o otaqda Maarif Nazirliyinin məsul işçisi yaşayacaq.

- Bağışlayın, ürəklənib soruşmaq istəyirəm, siz Allahverəni nazirliyə işə götürürsünüz?

- Niyə də yox? Belə kadrı mən əldən buraxmaram!

- Bağışlayın. Nə iş verirsiniz?

- Deməyə də bilərəm... deyirəm, amma infarkt olma, Ali Təhsil müəssisələrinə nəzarət idarəsinin rəisi vəzifəsinə.

- Əmri var?

- Sənin, deyəsən, kürkünə birə düşdü... çox sual verirsən... sağ ol, yataqxanaya sərəncam göndərməyi unutma.

Nazir rektorun nə deyəcəyini dinləmədən danışıq əlaqəsinə son qoydu, məni, sonra da kadr rəisini süzüb dedi:

- Eşitdiniz? Dediyim vəzifəyə, ştat cədvəlinə uyğun əmr hazırla... Allahverən, sən kim olsan da, mən səni müvəqqəti, altı ay müddətinə idarə rəisi təyin edirəm... altı aydan sonra... bax, ya vəzifəni itirəcəksən, ya da qalıb işləyəcəksən, bu, o deməkdir ki, dövləti, xidməti işinə ciddi yanaşmalısan...

- Söz verirəm ki, sizin etimadınızı doğruldacağam, hələ idarənin işi ilə tanış olandan sonra qəbulunuza təkliflərlə gələcəyəm də.

- Təklifin olsa, aparat rəhbərinə məruzə edərsən, lazım bilsə, qəbuluma gələrsiniz... gedin, çox vaxt itirdik, amma peşman deyiləm, deməli, necə deyərlər, Allah var göydə.

- Mən də fikirləşirəm ki, təzə rektor məni qovmasaydı, iş versəydi, yüz il bundan sonra, bəlkə də biz görüşməzdik.

- Deyirsən zəng edim, rektoru söyüm, sonra da təşəkkür edim? - nazir gülümsədi.

- Bağışlayın, irad da olsa, başa düşənə demək olar, rəhbərlə telefonla danışan adam ayaq üstə durub danışırsa... ona bir çox həyat məntiqi anlaşılmaz qalır.

- Sən get, sabah doqquzda gəl bu aparat rəhbərinin kabinetinə, o səni kollektivə, ya da lazım deyil, - aparat rəhbəri sürdü, - saat onda idarə, şöbə rəhbərlərini yığarsan mənim kabinetimə, Allahverəni özüm təqdim edərəm... hə, bir kimsə bilməsin ki, Allahverən işə müvəqqəti, altı ay müddətinə götürülüb... eşitdiniz?

- Bəli, - aparat rəhbəri, kadr rəisi danışmış kimi xorla dedilər.

- Hörmətli nazir, bir xahiş də edim, sırtıqlıq saymayın... bir saata yaxındır ki, kabinetinizdə oturmuşuq, nə qədər vaxtınızı mənə görə itirdiniz, icazə verin yuxudan ayılım.

- Hamımız bilirik ki, sən qarışıq yuxuda deyilik.

- Mən, mən yuxudayam, - ayağa durub nazirə yaxınlaşdım... sağ əlimin üstündəki qara ləkəni göstərdim, - bunu mənə atalıq qayğısı göstərmiş keçmiş rektordan, universiteti bitirməmiş iş verdiyinə, yataqxanada məskunlaşmağa razılaşdığına görə dörd il bundan qabaq mən xahiş etmişdim ki, məni yuxudan ayıltsın... çox xahişdən sonra dərimi qan sızana kimi sıxdı, bu dörd ildə bu kiçik yara sağalıb ət rəngi alanda mən onu yenidən, xeyirxah insanın yadigarı kimi qoparıb qanadıram... bu gün siz mənə atalıq qayğısı göstərdiniz, mənə, gələcəyimə şans verdiniz, xahiş edirəm, sol əlimin üstünü, baxın, bu iki damarın arasındakı dərini qan axana kimi sıxın, sizdən, ata əvəzindən yadigar kimi, hər dəfə əlimi yuyub üzümə çəkəndə sizi, Allah canına dəyməsin, köhnə rektoru yadıma salıb sizə dua oxuyacq və dövləti işimdə daha da məsuliyyətli olacağam, bu ləkələr həm də mənim əmək fəaliyyətimə nəzarətçi, talisman olacaqdır, inanırsınız, mən Moskvada oxuyanda, əlimi gündə neçə dəfə yusam da, bu ləkə sanki, bağışlayın, rektorun əvəzindən mənə ciddi deyirdi, "unutma ha, səni oxumağa göndərmişəm, bu sənə həm etibardır, həm də şansdır", bu sözləri atalıq tövsiyəsi sayaraq bir çox respublikalardan gəlib Akademiyada oxuyanlardan yüksək qiymət almağa çalışmışam... qanadın, söz verirəm bu qandan yaranacaq ləkə də mənə həmişə düz yol göstərəcək, məni sizin adınızdan dəstəkləyəcək, tövsiyənizə əməl edəcəyəm... bu gün mən iyirmi doqquz ildən sonra yetim kimi yox, atalı, həyatda artıq öz yolunu seçmiş kişi, əlbəttə, sizin sayənizdə fəaliyyətə başlayıram... Sıxın, qanadın, qanadın ki, ayılım...

- Çox uzun və kövrək danışdın, sən danışanda atanın mənə yüksək vəzifə tutacağım haqqında, bir vaxtlar qızın qardaşına ürəkdən dediyi sözləri, xeyir-duasını yadıma saldım, indi mənə elə gəlir ki, atanın xeyir-duası ilə bu vəzifə pillələrini qalxmışam və düşünürəm ki, təsadüflə də olsa, Allah səninlə məni görüşdürdü ki, atana olan borcumu verim...

- Bağışlayın, deyirlər o, yəni atam, xeyirxahlığını təmənnasız edərmiş, nəyə görəsə yox.

- Ola bilər, amma onun xeyir-duasını indi mən, vəzifə sahibi, atanın əvəzindən sənə qaytarıram, deyirsən sol əlinin dərisini qopardım? - nazir xoş əhvalla gülümsədi.

- Xahiş edirəm, baxın, bu hissəyə dırnağınızı ilişdirin.

Nazir gözlərini gözlərimdə dondurub iki barmağının dırnaqlarını əlimin dərisinə ilişdirdi, sıxdı:

- Ağrıyır?
- Yox!
- Ağrıyır?
- Yox!
- Ağrıyır?
- Yox!
- Axı, qan çıxdı?

- İnanırsınız, bu yaşıma qədər o qədər fiziki və mənəvi ağrılar çəkmişəm ki, bu ağrıları xoşhallıqla qəbul etdim... "buyrun, salfetka ilə barmaqlarınızı silin", deyə pencəyimin cibindən salfetka çıxarıb nazirin barmaqlarını sildim, dəsmalımı əlimin üstünə qoydu.

- Hə, yuxudan ayıldın?

- Tam yox, sabah siz məni kollektivə təqdim edəndən və mən kabinetdə oturandan bir neçə saat sonra yəqin ki, tam ayılacağam.

- Bu qədər də inamsızlıq yaramaz... heç olmasa, atan haqqında danışdıqlarıma inan.

- İnanıram, inam dalğaları mürgünü, mürgü də həqiqəti, sizdən eşitdiklərimi tez-tez dalğalandırır, icazə verirsiniz gedim?

- Get... bu gün yataqxanaya yığış, gecə işinə də daha getmə.

- Yataqxanaya gedəcəyəm, amma bağışlayın, bir müddət gecə işində işləməliyəm.

- Niyə?

- İlk əmək haqqımı alana kimi dolanmaq üçün.

- Yardım fondundan ona müəyyən məbləğ ayır, - nazir aparat rəhbərinə göstəriş verdi.

- Bağışlayın... olmaz, mən hələ bir gün də olsun nazirlikdə işləməmişəm... bu büdcəyə ziyandır, istəmirəm.

- Bir az təminatlıya mükafat yaz, ver Allahverənə.

- Buna da razı deyiləm... birdən, qəfildən o az təminatlı özü xəstələnə, və ya, ailəsində problem ola bilər, onun haqqını, xahiş edirəm, mənə verməyin, məni alçaltmayın, ayın axırına iyirmi gün qalıb, imicimə xələl gətirmədən ilk əmək haqqımı alana kimi işləyərəm.

- Onda... bir vaxtlar atan mənə "26-lar" bağında verdiyi yeməyin pulunu, əvəz kimi sənə qaytarım, - nazir əlini pencəyinin cibinə aparanda tələsik dedim:

- Bağışlayın, atam sizi qonaq edəndə, demişdi ki, siz ona borclu qalırsınız?

- Yox, sonralar da o Bakıya gələndə mənimlə xörək yeyərdi, bir dəfə də olsun bu barədə eyham etməzdi.

- Yenə bağışlayın, onda hansı borcdan söhbət gedir, atamın ruhu ikimizi də qınayar, - deyə çantamı stolun altından götürüb çıxış qapısına gedəndə nazir səsini qaldırdı:

- Allahverən, doktorluq haqqında düşünmürsən ki?

- Düşünmüşəm də, müəyyən mərhələləri keçmişəm də.

- Mövzu seçmisən?

- Mövunu təsdiq etdirmişəm, iş planını razılaşdırmışam... qeyd etdiyim kimi, məni Akademiyada saxlamaq, doktorluq tədqiqatı üzərində işləməyimi təkid etmişdilər... mən də düşündüm ki, səhər-birisigün otuz yaşım olacaq, hələ bir yerdə məskunlaşmamışam, evim yox, stabil işim yox... doğma Azərbaycanda məskunlaşmağı, öləræmsə, kimin meyiti küçədə qalır ki, aparıb Azərbaycan torpağında dəfn edərlər...

Burada da doktorluq işinin tədqiqatını apara bilərəm.

- Sənə uğurlar, xeyir-duamı qəbul et, - deyə nazir gülümsədi.

- Sağ olun, Allah sizi sağlam yaşatsın, - deyib birinci lay qapını açıb qəbul otağına çıxdım. Gərginlikdən azad olduğuma görə boynum və burnumun kənarları nəmişləndi.

- Nə çox çəkdi sizin qəbulunuz? - köməkçi sanki elə-belə dedi. Cavab vermədim, kondisionerin havasına yaxın oturdum. Köməkçi növbəti vətəndaşı içəri buraxdı, - iş verəcəklər sənə? - soruşdu.

- Bilmirəm, qəbul qeyri-müəyyən oldu, - köməkçini aldatdım və azacıq sərinləyib qəbul otağından çıxdın. Məmur qadını, mənim sənədlərimi qəbul edəni axtardım ki, təşəkkür edim. Kabinetini mənə göstərdilər... təşəkkür əvəzinə onunla ciddiliklə zarafat etməyi düşündüm. Kabinetinin qapısını döyüb açdım.

- Xanım, sizin qəbulunuza gələ bilərəm? - məmur başını qarşısındakı qovluqdan yayındırıb iriləşmiş gözlərini mənə yönəltdi, təəccüblə, heyranlıqla baxıb ayağa qalxdı.

- Sənsən... gəl... qəbul necə keçdi? - birnəfəsə soruşdu.

- Gəldim sizə dərin, insani təşəkkürümü bildirin.

- Dəyməz, borcumuzdur.

- Mən axmaq, sadəlövh insanam, sizə, səmimiyyətinizə inanmışam, kimsəsiz kimi özüm haqqında sizə danışmışam... min dəfə sizə təşəkkürlər, siz də çox canfəşanlıqla nazirə qədər sızdırmısınız ki, dilənçiyəm, hambalam, sərsəriyəm, eqoist və layiq olmadığım halda qürurluyam, daha insana aid nə mənfi xüsusiyyətlər var, hamısını nazirə, bilmirəm, kiminsə vasitəsilə təlqin etmisiniz... deyin, sizə nə pisliyim keçmişdi ki?

- Danışdıqların mənə böhtandır, mən sektor müdiri, bir insan kimi sizin haqqınızda idarə müdirinə ancaq və ancaq xoş sözlər demişəm.

- Hə, o qədər mənim mənfi xüsusiyyətlərimdən danışmısınız ki, heç alim olmağımı da nəzərə almadılar, beş dəqiqədən sonra məni mədəni şəkildə kabinetdən qovdular... nədir mənim günahım, arxasızlığım, kimsəsizliyim, yetim olmağım, bu yaşımda hələ bir yerdə məskunlaşa bilməməyim... mən axmaq, necə də sizin səmimiyyətinizə inanmışam, bəli, daha itirəsi bir şeyim yoxdur, artist olduğunuzu duymamışam.

- And olsun Allaha ki, mən sənin bu iradlarına layiq deyiləm, yenə deyirəm, mən idarə müdirimdə sizin haqqınızda ancaq xoş fikirlər yaratmışam... istəyirsiniz, gedək, müdirimlə sizi görüşdürüm...

- Lazım deyil, nəticə aydındır... hə, tale məni sərsəri ruh kimi siz insanların arasında fırlanmağa məcbur edib, sizlərə nifrət edirəm, deməli, mən yenidən Vətənimdə bir kimsəyə inanmamalı, yenidən özümə qapanmalıyam... təşəkkürlər... səni, xanım, ümumi, hamının Allahına yox, öz Allahıma tapşırıram, qoy o, mənim əvəzimdən sizi istədiyi kimi cəzalandırsın... sözə bax, itə atmağa bir daşı, xərcləməyə bir quruşu yoxdur, amma böyük karyera iddiasındadır, bu sözlər də sənin deyil?

- Yox, yox, sən məni təhqir edirsən, - xanım doluxsundu, onu süzüb kabinetdən çıxdım, arakəsmədə artistcəsinə, zarafatla dediyim monologuma güldüm... birinci mərtəbəyə düşəndə yadıma düşdü ki, buraxılış vərəqəsini qeyd etdirməmişəm, liftlə yenidən qəbul otağına qalxdım, köməkçiyə qeyd elətdirib çıxanda məmurla rastlaşdım, saymadım, məni sözlü bir adam kimi süzdü, keçib getdim, o, qəbul otağına girdi, sonralar öyrəndim ki, köməkçidən soruşub:

- Allahverən qəbuldan necə çıxmışdı?

- Özündən soruşaydın da, indi buradan çıxdı ki!

- Soruşdum... narazılığını bildirdi.

- Qəbuldan dilxor çıxmışdı, otaq sərin olsa da, qalstukunu boşaldıb tez-tez boynunu, burnunun ətrafını silirdi... soruşdum, dedi ki, qəbul qeyri-müəyyən oldu...

- İnanmıram... ona iş verilməliydi, - deyə məmur xəyallanıb qəbul otağından çıxıb, mənim arxamca birinci mərtəbəyə tələsib... mən çayxanada olmuşam...

- Unutma, nazirlə görüşdən ikimiz də çox sevincək olmuşduq, "ay qız, getmə aralı" mahnısını zümzümə edirdik, - nəhayət Allahverənin daxili məni dilləndi.

- Sevincək olardıq da, onun atalıq qayğısı mənim həyatımın dönüşü, əlbəttə, yaxşılığa doğru, oldu.

- Deyirlər, yaxşılıq unudulmur, atamızın yaxşılığı, tələbə, gələcəyin nazirinə insani qayğısı, gör ee, otuz ildən çox keçmiş olsa da, özünü büruzə verdi... xəbərin var, biz də xeyirxahlığımızla atamıza oxşamışıq, - daxili mən Allahverəni qıdıqladı.